# Haqq aşığı Qurbanəli

## Akademik Feyzulla Qasımzadənin yüksək qiymətləndirdiyi haqq aşığının vəfatından 56 il ötür...

**Aşıq Qurbanəli Quliyev əslən Cənubi Azərbaycanın Kəmin kəndindəndir. 1885-ci ildə təvəllud tapmışdır. O, Lerikin Hüseynabad kəndinə köçmüş, uzun müddət burada yaşamış, sonralar isə Lerikdə məskunlaşmışdır. Aşıq Qurbanəli Bənövşə xanımla evlənmişdi. O, pristav İbadulla bəy Nurullabəyovun mühafizəçisi olmuşdur. 1941-ci ilə qədər əkinçi işləyib. El sənəfkarı, atası Əlibala Qurbanəlinin ustadı idi. Əibalanın Kərəm və Mehrəli adlı qardaşları da musiqiçi olmuşlar. 1943-cü ildə Qurbanəlini həbs edirlər. Səbəb də bu olur ki, guya Qurbanəli "duman gəlir" deməklə Hitlerin sovet hökumətini yıxmağa gəlməyinə işarə vururmuş. Onu həbs edib Lənkərana, oradan Gəncəyə, sonradan isə Sibirə sürgün edirlər. Ağa Quliyev onda respublika prokurorluğunda işləyirdi. Qurbanəlinin gunahsız olduğunu bildiyi üçün arvadı Bənövşənin və qızının adından Moskvaya ərizə yazır ki, Qurbanəli nahaq tufulub. Ərizələr Stalinə və Kalininə ünvanlanırdı. 1946-cı ildə Qurbanəli Quliyevi həbsxanadan azad edirlər. O danışırmış ki, məni aşıq sənəti xilas etdi. Ruslar aşığa tatarca "akan" deyirlər. Qurbənəli sazda çalıb dustaqları əyləndirər, onları möhkəm və dözümlü olmağa, mənəvi təmizliyə dəvəf edərmiş. Ona nəzarət edənlər görüblər ki, Qurbanəlidən xalq düşməni çıxmaz.**

Qurbanəli Quliyevin aşıqlıq elədiyi dövrdə dastançılığa, nağılçılığa, deyişmələrə böyük maraq var idi. O vaxtlar Lerikdə Azəri fürkcəsini bilənlər az idi. Dilin saflaşmasında, şifahi xalq ədəbiyyatının, xalq deyimlərinin, maarifçilik ideyalarının təbliğində Aşıq Qurbanəlinin böyük rolu vardı. Aşığın toy şənliklərində, bayramlarda söylədiyi dasfanlar hamını valeh edərdi. Üç gün üç gecə davam edən toy məclisləri səhərə qədər davam edərdi. "Abbas və Gülgəz", "Şah İsmayıl", "Vanlı Köçək", "Kəlbi", "Əsli və Kərəm", "Aşıq Qərib", "Batman qılınc", "Adıgözəl" və başqa dastanlar, xalq nağılları yaşlı adamların yaddaşından silinməyib. O, bir neçə dəfə deyişmədə aşıqlara üstün gəlmişdi.

Qurbanəli saz havalarının mahir ifaçısı idi. Onun səsləndirdiyi saz havaları dinləyicilərin sümüklərini oynadırdı. Xanış, Cabbar və Xanoğlan (onu 12 il müşayiət ediblər) nəfəs alətlərində çalar, Balağa isə xanəndəlik edərdi. Aşıq Qurbanəlinin əmisi oğlu Sahil Kərimov və Aşıq Musa da elin hörməfini qəzanmış sənətkarlar olmuşlar.

Aşıq Sahil oktyabr inqilabının ildönümü ilə əlaqədar Moskvada keçirilmiş Azərbaycan mədəniyyət və incəsənət dekadasının iştirakçısı olmuş, dahi bəstəkar Üzeyir Hacıbəyovun rəhbərlik efdiyi musiqi kollektivinin tərkibində qara zurnada "Cəngi" havasını səsləndirmiş, Kremli lərzəyə gətirmişdi...

Ömrü boyu azadlıq ideyaları ilə insanlara sevgi və məhəbbət hissləri iləyaşayan el sənətkarı Aşıq Qurbanəli xalqına, Vətəninə bağlı idi. "Azərbaycan dasfanları" toplusunun 5-ci cildində gösfərilmişdir ki, Aşıq Qurbanəli "Şah İsmayıl" məhəbbət dasfanının yeni variantını söyləmişdir. Akademik, Azərbaycan MEA-nın müxbir üzvü Feyzulla Qasımzadə Lerikli Aşıq Əlibalanı və oğlu Aşıq Qurbanəlini dinləyərək onların hər ikisini "haqq aşığı" adlandırmışdır. Aşıq Qurbanəlinin evində məclislər qurular, dastanlar, nağıllar, deyişmələr söylərdi. El sənəfkarı ömrünün sonuna kimi Lerik qəsəbəsində yaşamış, 1958-ci ilin may ayında dünyasını dəyişmişdir.



Aşıq Qurbanəli Lerikin Penkujə məhəlləsində tez-tez məclislər qurar, onu dinləyənlərin gözünə yuxu getməzdi. Aşıq Qurbanəli halal adam idi. Son dərəcə məğrur və kamil şəxsiyyət, həssas və mehriban insan kimi hamının diqqətini özünə çəkərdi. Yaxşı hafizəsi olduğu üçün bir dəfə eşitdiyi nağılı, dastanı, saz havasını yadında saxlaya bilirmiş. O, çox hazırcavab olduğu üçün hər kəs onunla ehtiyatla danışardı.

Aşıq Qurbanəlinin dörd qızı olmuşdur: Səkinə, Bənövşə, Tellibəyim, Şövkət. Şövkətdən başqa üç qızı dunyasını dəyişmişdir. Hazırda mərhum el sənətkarının evində nəvəsi Həsən yaşayır.

Qaynaqlardan bəllidir ki, "Şah İsmayıl" dastanlarının birinin müəllifi Aşıq Qurbanəlidir. O, dastanda sevgilisinin fərağına dözməyən aşiqin dilindən deyirdi:

**- Bir ceyranı qova-qova gətirdim,**
**Gətiribən bu diyarda itirdim.**
**Nənə, ceyarn mənim idi, itirdim.**

Çox təəssüf ki, dastanın variantı əlimizdə yoxdur. 1970-ci ildə Aşıq Qurbanəlinin mərhum kürəkəni Babulla Vəliyev (o, uzun müddət maarif sistemində işləmişdir) Aşıq Məmməd Cəbievə qayınatasının bir neçə gözəlləmələrini vermişdi ki, məclislərdə oxusun. Aşıq Qurbanəli demişdir:

**Şükür olsun dərgahına xudanın,**
**Laməkan şəhrində kama yetişdim.**
**Çün cana yetişdim madar oldu xun,**
**Bir müddət dolandım qan girdabında,**
**Cansız idim, gəldim cana yetişdim.**

**Yer üzünə endim dedilər mənsum,**
**Kimdir bu dünyadan olmasın mərhum.**
**Dəhan açdım, ta bostana yetişdim.**

**Anadan olcağım, düşdüm bələyə,**
**Arxam yerə qaldı, üzüm səmaya.**
**Tutdular qolumdan girdim xanaya,**
**Gah yıxılıb, gah karvana yetişdim.**

**Bir gün kimsə gəldi, əlində çəngəl,**
**Sorğu-sual etdi çox oldu əngəl.**
**Qohum-qonşu gəldi qopdu qalmaqal,**
**Evdən köçdüm, o tabuta yetişdim...**

**Qoydular tabuta, dedilər Allah,**
**Yetim uşaq idi, çalanda lay-lay.**
**Təhlimi vercəyin qayıtdı molla,**
**Eldən köçdüm, o tabuta yetişdim...**

Aşıq Məmməd Cəbiyev Aşıq Qurbanəlinin əmisi oğlu, zurna-balaban ustası Sahil Quliyev haqqında da maraqlı xatirələr söylədi. Dedi ki, otuzqırx il bundan əvvəl Sahil Quliyevin ifa etdiyi xalq havalarının səsi hələ də qulaqlarımdan getməyib. O, sənətin incəliklərini öyrəndikdən sonra xalqın qarşısına çıxmağı tövsiyyə edərdi. "Mücəssəmə", "Veləçola", "Yekpay", "İnnabı", "Cəngi", "Alçagülü", "Vağzalı", "Guləşdi" havalarını çox məharətlə ifa edərdi. Mən sənətə gəlişimə görə onun ruhu qarşısında baş əyirəm.

Bir dəfə Aşıq Məmməd soruşur:

- Ustad, siz bir hava çalırsınız: "Jekpay". Bunun mənası nədir?

Sahil Quliyev ona belə cavab vermişdi:

- Yəni bir pay aparırsan bəy evinə.

Sahil Quliyev ustad sənətkar olduğu üçün qrammafon valları da buraxılmışdı. Təəssüf ki, indi bu vallar əlimizdə yoxdur. O, 1963-cü ildə dünyasını dəyişmiş, qardaşı Musa Quliyevin və əmisi oğlu Aşıq Qurbanəlinin uyuduğu Dədə Maqsud türbəsində dəfn olunmuşdur.

Əllinci illərdə Lerik rayonu ilahiyyatçı alimlərlə zəngin idi. Onlardan Kəlvəz kəndindən Hacı Məhəmməd Axund, Axund Mirzə Əbdül Məsud, müctəhid Mirzə Cəfər, Veri kəndindən Mir Kərim Axund, Zenonu kəndindən Axund Qulamrza Məhəmmədrza oğlu (Şeyx Qələm), Hoveri kəndindən Molla Hüseyn Ələsgər oğlu və başqaları böyük həvəslə Aşıq Qurbanəlinin məclislərində iştirak edər, onu diqqəflə dinləyər, Məhəmməd Peyğəmbərin (s) və imamların şəninə qoşduğu, onların din, əqidə, həqiqət yolunda hizmətlərini bədii sözlə ifadə edən ustadnamələrə maraqla qulaq asardılar. Bəzən ona zaratatla deyərdilər: "Aşıq, sən gəl bizə qoşul, mollalıq elə". Aşıq isə belə cavab verərmiş: "Mən öz əqidəmlə həmişə Allahlayam. Allahım məni belə xəlq edib. Sazımla və sözümlə ilahini vəsf edirəm".


**İdris Şükürlü,**
**Azərbaycanın**
**Əməkdar jurnalisti.**


***P.S. Aşıq Məhəmməd Cəbiyevin ustadına həsr etdiyi şeiri oxucuya təqdim edirik.***

### *SAZ YARAŞIĞI*

***Ustadım Aşıq Qurbanəliyə ithaf edirəm***

**Elimin-obamın ustad aşığı,**
**Allahdan dilədim ruhun şad olsun.**
**Sazında səslənmiş şirin kəlmələr**
**Ustadım, şagirdin qəlbinə dolsun.**

**İncə barmaqların saz yaraşığı,**
**Düzdüyün hər misra söz yaraşığı,**
**Yurduma bəzəksən, sən haqq aşığı,**
**İqbalın daima mənə yar olsun.**

**O uzaq ellərdən sorağın gəlib,**
**Səsin kainata burdan yüksəlib.**
**Sazınla könüllər ağlayıb-gülüb,**
**Səni alqışlayan dünyalar olsun.**

**Sənət meydanında əymәmisən qədd,**
**Çağlayan ilhamın tanımadı sədd,**
**Ay ustad, şagirdin Aşıq Məhəmməd,**
**Arzular sənin tək sənətkar olsun.**